www.ipekchi.info
# İPƏKÇİ
1933-cü ildən nəşr edilir
AZƏRBAYCAN İPƏKÇİLƏRİNİN AÇIQ TRİBUNASI

*"..."İpəkçi"nin yaradıcı kollektivinə haqq-ədalət uğrunda mübarizə aparmaqda, bütün qüvvələri səfərbər etməkdə, hər bir oxucuda müstəqil Azərbaycanın sabahına inam yaratmaqda böyük uğurlar diləyirəm", –*
**Heydər Əliyev.**

№ 8 (2282) | 22 noyabr 2011-ci il | Qiyməti 20 qəpik

**Şəki, Qəbələ, Qax və Oğuz rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Son illərdə ölkənin bütün bölgələrində olduğu kimi, Şəki, Qəbələ, Qax və Oğuz rayonlarında da bir sıra mühüm infrastruktur layihələri həyata keçirilmiş, müasir tələblərə cavab verən sosial yönümlü obyektlər inşa edilmiş, genişmiqyaslı abadlıq-quruculuq işləri, o cümlədən turizmin inkişafı üçün əsaslı tədbirlər görülmüşdür.

Bu istiqamətdə işlərin davam etdirilməsi və "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda müəyyən olunmuş tədbirlərin göstərilən rayonlar üzrə həyata keçirilməsinin sürətləndirilməsi məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Şəki, Qəbələ, Qax və Oğuz rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Şəki, Qəbələ, Qax və Oğuz rayonlarının icra hakimiyyətlərinin hər birinə 2,0 (iki) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 21 noyabr 2011-ci il.

# Prezident İlham Əliyev noyabrın 17-də Şəki şəhərinə təşrif buyurmuşdur

## İlham Əliyev Şəkidə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmişdir

Prezident İlham Əliyev Şəki rayonuna səfərə gəlmişdir.

Dövlət başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Şəki şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Prezident İlham Əliyevə abidənin ətrafında görülmüş abadlıq-quruculuq işləri barədə məlumat verildi. Bildirildi ki, ərazidə yaşıllıq zolağı daha da genişləndirilmişdir.

## İlham Əliyev Şəki Olimpiya İdman Kompleksinin yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşdur

Prezident İlham Əliyev Şəki Olimpiya İdman Kompleksinin yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşdur.

Dövlət başçısı kompleksin yenidənqurmadan əvvəlki və sonrakı vəziyyətini əks etdirən stendlərə baxdı.

Məlumat verildi ki, regionun ən böyük olimpiya idman komplekslərindən biri olan bu idman mərkəzi 2002-ci ilin noyabrında ulu öndər Heydər Əliyevin iştirakı ilə açılmışdı. O vaxtdan başlayaraq bu kompleksdə bir çox idman yarışları, təlim məşqləri və digər ictimai-sosial tədbirlər keçirilmişdir. Son dövrlərdə isə ərazisi bir qədər də genişləndirilmiş kompleks aparılan yenidənqurma işləri nəticəsində müasir standartlar səviyyəsinə çatdırılmışdır. Buradan aydın görünür ki, ölkəmizdə bütün idman qurumlarının bir yerdə fəaliyyət göstərməsi uğurlu nəticənin əldə olunmasının əsas səbəblərinən biridir. Bu sırada Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın idmançılara olan diqqəti də nəzərdən qaçmır. Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi Mehriban xanım Əliyevanın səmərəli fəaliyyəti bu sahədə ölkəmizin ciddi uğurlar qazanması ilə müşayiət olunur. Bir sözlə, Azərbaycan dünya idman aləminə nəhəng mərkəzlərdən biri kimi daxil olmuşdur və nailiyyətin təməlində ölkəmizdə idmana olan yüksək münasibət dayanır.

Azərbaycan Prezidenti voleybol zalına və hovuza baxdı, ikinci mərtəbədəki konfrans zalında yaradılmış şəraitlə tanış oldu.

Qeyd edildi ki, kompleksdə yenidənqurma işlərinə 2008-ci ildən başlanılmışdır. Sahəsi 8 min kvadratmetr olan kompleksdə 2,2 min kvadratmetrlik böyük idman zalı yaradılmışdır. Kiçik idman zalının sahəsi isə 1800 kvadratmetrdir. İdman zalları gələcəkdə burada irimiqyaslı beynəlxalq və yerli əhəmiyyətli yarışların keçirilməsinə tam imkan verir. İdman və sağlamlıq üçün bütün infrastrukturun yaradıldığı Olimpiya Kompleksində hər biri 800 kvadratmetr olmaqla hovuz və SPA mərkəzi, 240 kvadratmetr sahədə isə trenajor zalı yaradılmış və zəruri idman avadanlığı quraşdırılmışdır.

Yenidənqurma işləri nəticəsində kompleksin ərazisində 1400 kvadratmetr sahəni əhatə edən akvapark yaradılmışdır. Bütün əyləncə növlərinin olduğu bu kompleksdə restoran və boulinq zalı da fəaliyyət göstərəcəkdir. Konfrans zalının, internet klubun da yaradıldığı Şəki Olimpiya İdman Kompleksinin tərkibinə 1500 kvadratmetr sahəsi olan otel bölməsi də daxildir. Kompleksin ərazisində 8 min kvadratmetr sahəsi olan futbol meydançası da yaradılmışdır. Ərazidəki 27 kottecdə idmançıların istirahəti üçün bütün imkanlar vardır. Otel də daxil olmaqla bu kotteclər Şəkidə təşkil olunan yarışlarda iştirak etməyə gələn idmançıların qalması və istirahəti üçün nəzərdə tutulmuşdur. Kompleksdə uşaqların da idman növləri ilə məşğul olmaları üçün bütün şərait vardır. Burada balacalar üçün 380 kvadratmetrlik uşaq əyləncə binası da tikilmişdir. Kompleksdə yaradılan şərait bir daha təsdiqləyir ki, dünyada özünün sürətli iqtisadi inkişafı ilə fərqlənən Azərbaycan həm də nəhəng idman mərkəzinə çevrilməyi qarşıya məqsəd qoymuşdur. Bu məqsədə nail olmaq yolunda atılan addımlar isə öz bəhrəsini verir.

Dövlət başçısı, həmçinin idmançıların, eləcə də xarici qonaqların qalması üçün burada yaradılan otaqlara, kotteclərə və uşaqlar üçün əyləncə və istirahət mərkəzinə baxdı.

Bildirildi ki, buradakı "Karvan" restoranında nümunəvi xidmət göstəriləcəkdir.

Prezident İlham Əliyev yenidənqurma işlərindən razılığını bildirdi.

## İlham Əliyev Şəkidə Mərkəzi Xəstəxananın açılışında iştirak etmişdir

Prezident İlham Əliyev Şəkiyə səfəri çərçivəsində mərkəzi xəstəxananın açılışında iştirak etmişdir.

Dövlətimizin başçısı xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdi.

Səhiyyə naziri Oqtay Şirəliyev məlumat verdi ki, 100 çarpayılıq xəstəxananın inşası müasir texnologiya və qabaqcıl təcrübə əsasında həyata keçirilmişdir. Xəstəxananın təməli 2008-ci ilin sentyabrında Azərbaycan Prezidentinin iştirakı ilə qoyulmuşdur.

Əsas bina altı korpusdan ibarətdir. Birinci və ikinci korpuslar üçmərtəbəli, üçüncü və dördüncü korpuslar ikimərtəbəli, digər iki korpus isə birmərtəbəlidir. Burada təcili tibbi yardım, reanimasiya, iki cərrahiyyə, onkoloji xəstəliklər, göz xəstəlikləri, diaqnostika, laboratoriya, dializ və poliklinika şöbələri fəaliyyət göstərir.



Şəkildə: Prezident İlham Əliyev Şəki şəhərində "Aşağı Karvansaray" kompleksində aparılan təmir-bərpa işləri ilə tanış olur

Təcili tibbi yardım şöbəsi ilə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, burada reanimasiya və kiçik əməliyyat bloku vardır.

Qeyd olundu ki, bu şəfa ocağında 300-dək tibbi heyət əhalinin sağlamlığının keşiyində duracaqdır. Şöbələrdə quraşdırılan avadanlıq tibb elminin ən son nailiyyətlərinə əsaslanır. Burada ultrasəslə müayinə, hemodializ, anesteziya avadanlığı, rentgenoqrafiya, kompyuter-tomoqrafiya, laboratoriya, süni nəfəs aparatları quraşdırılmışdır. Xəstəxanada, həmçinin müasir 4D ultrasəslə müayinə aparatı qoyulmuşdur. Buradakı avadanlıq dünyanın aparıcı ölkələrinin istehsalıdır.

Bildirildi ki, tibb ocağında cərrahiyyə blokları ən son tibbi avadanlıqla təmin edilmişdir. Bloklarda ilk dəfə olaraq Azərbaycan dilində xüsusi sensorlu monitorlar quraşdırılmışdır. Bu monitorlar vasitəsilə cərrahiyyə bloklarında işıqlandırma və havalandırma rejiminə vahid mərkəzdən nəzarət edilir. Bundan başqa, blokların divarları da xüsusi istilik sistemi ilə təchiz olunmuşdur ki, bu da dünyanın ən aparıcı ölkələrinin tibb ocaqlarında istifadə edilir. Xəstəxanada hər cür şəraitlə təchiz edilmiş konfrans zalı da fəaliyyət göstərir.

Prezidentin Ehtiyat Fondundan ayrılmış vəsait hesabına inşa olunan xəstəxananın dörd hektarlıq həyətyanı sahəsində avtodayanacaqlar, su hovuzları, içməli və çirkab su anbarları, nasosxana, transformator yarımstansiyası, qazanxana tikilmişdir. Xəstəxananın həyətində geniş abadlıq işləri aparılmış, yaşıllıq zolaqları salınmışdır.

Tibb ocağı ilə tanışlıqdan sonra Prezident İlham Əliyev xəstəxananın kollektivi və Şəki ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Şəki ictimaiyyətinin və xəstəxananın kollektivi adından çıxış edən həkim İmran Əliyev dövlətimizin başçısına minnətdarlığını çatdırdı.

Sonda xatirə şəkli çəkdirildi.



Şəkildə: Prezident İlham Əliyev Şəki şəhərindəki Mərkəzi Xəstəxananın kollektivi və Şəki ictimaiyyətinin nümayəndələri ilə birlikdə

## İlham Əliyev Şəkidə "Green Hill İnn"mehmanxanasının açılışında iştirak etmişdir

Prezident İlham Əliyev Şəkiyə səfəri çərçivəsində "Green Hill İnn" mehmanxanasının açılışında iştirak etmişdir.

Dövlət başçısı mehmanxananın rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, beşmərtəbəli turizm kompleksinin ümumi ərazisi 1,2 hektardır. Kompleksə daxil olan otel və kotteclərin ümumi sahəsi isə 5 min kvadratmetrdən çoxdur. Ərazidə mehmanxana binası ilə yanaşı, yardımçı tikililər, böyük və kiçik hovuz yaradılmışdır. Mehmanxananın həyəti abadlaşdırılmış, geniş yenidənqurma işləri aparılmış, yaşıllıq zolağı salınmışdır.

Prezident İlham Əliyev mehmanxananın ərazisində görülməsi nəzərdə tutulan işləri əks etdirən stendə baxdı, ən yuxarı mərtəbədən şəhərin mənzərəsini seyr etdi. Şəkidə həyata keçirilən geniş quruculuq-abadlıq işləri barədə dövlətimizin başçısına məlumat verildi.

Bildirildi ki, mehmanxananın 4 mərtəbəsi apartament nömrələrdir. Burada 4 birotaqlı, 12 ikiotaqlı, 8 üçotaqlı, 3 dördotaqlı nömrələr qonaqlara təklif olunur. Mehmanxana binasının beşinci mərtəbəsində isə 18 otaq yaradılmışdır. Nömrələrin hamısı ən son informasiya-kommunikasiya avadanlığı, o cümlədən internetlə təmin olunmuşdur. Binada sürətli liftlər quraşdırılmışdır.

Qeyd edildi ki, müasir havalandırma sistemləri ilə təchiz edilən mehmanxana kompleksinin ərazisində, həmçinin kottec tipli istirahət və əyləncə otağı, SPA, fitnes, yeməkxana və asudə vaxtın səmərəli keçirilməsi üçün otaqlar vardır. Mehmanxana kompleksində 200 nəfər işlə təmin edilmişdir.

"Green Hill İnn" mehmanxanası Şəkinin turizm potensialının göstəricisi olmaqla bu bölgənin imkanlarını da nümayiş etdirir. Burada yaradılan şərait təsdiqləyir ki, müasir dövrdə turizmin əsas məqsədi ölkə iqtisadiyyatının kompleks inkişafını təmin etməkdir. Son illər Azərbaycanda turizmin ölkə iqtisadiyyatının mühüm hissəsinə çevrilməsi, bu sahədə xırda və orta sahibkarlıq üçün möhkəm bazanın yaradılması regionların infrastruktur cəhətdən inkişafını da təmin edir.

Dövlət başçısı mehmanxananın açılışı münasibətilə təbriklərini çatdırdı.

## İlham Əliyev Şəkidə "Aşağı Karvansaray" kompleksində aparılan təmir-bərpa işləri ilə tanış olmuşdur

Prezident İlham Əliyev Şəki şəhərində "Aşağı Karvansaray" kompleksində aparılan təmir-bərpa işləri ilə tanış olmuşdur.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Azərbaycan Prezidentinə məlumat verdi ki, qədim abidələrlə zəngin bölgələrimizdən olan Şəkidəki XIX əsrə aid "Aşağı Karvansaray" Yaxın Şərqdə ən böyük karvansaradır. Kompleksdə əsaslı təmir və bərpa işlərinin aparılması dövlətimizin tarixi keçmişimizin qorunmasına olan həssas münasibətindən qaynaqlanır. Şəkinin özünəməxsus memarlıq üslubunu əks etdirən və 8 min kvadratmetr ərazini əhatə edən bu tarixi binada 200-dən çox otaq vardır.

Dövlətimizin başçısı kompleksin əvvəlki vəziyyətini, təmir-bərpa işlərinin gedişini və istifadədən sonrakı vəziyyətini əks etdirən stendə baxdı.

Diqqətə çatdırıldı ki, xüsusi layihə əsasında aparılan bərpa işlərinə 2010-cu ilin yanvarında başlanılmışdır. Təmir-bərpa işlərinin bu ilin dekabrında başa çatdırılması nəzərdə tutulur. Hazırda işlərin birinci mərhələsi həyata keçirilir.

Kompleksdə görülən işlər barədə məlumat verilərkən bildirildi ki, indiyədək uzunluğu 5,2, eni isə 4,3 metr olan 30 tağbənd qurulmuş, 5 min 197 kvadratmetrlik dam örtüyünün konstruksiyası yenidən quraşdırılaraq kirəmitlə örtülmüşdür. Bundan başqa, kompleksdə 5,2 min kvadratmetr damüstü sahə torpaqdan təmizlənmiş və yenidən qurulmuşdur. Burada 3 min 146 kvadratmetr fasad, 16 min 428 kvadratmetr interyer və tağbəndlər köhnə suvaqdan təmizlənmişdir. Kompleksin şimal-qərb fasadları qarşısında 175 metr məsafədə 2,5 metr hündürlüyündə istinad divarları hörülmüşdür. Ərazidə 5 min 280 kvadratmetr sahəyə kərpic döşənmiş, 3 min 82 kvadratmetr sahəyə yeni tirlər qoyulmaqla taxta döşəmə vurulmuşdur. Eyvanlar bərpa olunmuş, 8 tay darvaza, 170 pəncərə, 128 qapı yenilənmişdir. Bundan başqa, kompleksdə 32 eyvan tağı bərpa edilmişdir. Burada ümumilikdə, zirzəmi də daxil olmaqla 253 otaq vardır.

Diqqətə çatdırıldı ki, "Aşağı Karvansaray" kompleksində aparılan tikinti-bərpa işlərinin ikinci mərhələsində 60-80 nəfərlik mehmanxananın tikilməsi nəzərdə tutulur. Kompleksdə ilk dəfədir ki, bu cür əsaslı təmir-bərpa işləri həyata keçirilir.

Prezident İlham Əliyev tikinti və bərpa işlərinin yüksək keyfiyyətlə yerinə yetirilməsinə, eləcə də karvansaranın gələcəkdə istifadəsinə dair tapşırıq və tövsiyələrini verdi.

Ardı 2-ci səhifədə

# Prezident İlham Əliyev noyabrın 17-də Şəki şəhərinə təşrif buyurmuşdur

Əvvəli 1-ci səhifədə

**İlham Əliyev Şəki şərab zavodunun açılışında iştirak etmişdir**

Prezident İlham Əliyev “Aqroinvestkom” MMC-nin Şəki şərab zavodunun açılışında iştirak etmişdir.

Dövlət başçısına məlumat verildi ki, 2004-2008-ci illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq yaradılan zavodun ümumi sahəsi 7,8 hektardır. Tikintisinə 2008-ci ildə başlanılan zavod ildə 3 min ton üzüm emal etmək gücünə malikdir. Lakin gələcəkdə bu rəqəmin 10-15 min tona çatdırılması nəzərdə tutulmuşdur.

Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin və dövlətimizin başçısının ölkəmizdə özəl sektorun, o cümlədən üzümçülüyün inkişafına göstərdiyi diqqət və qayğını əks etdirən fotolardan ibarət stendə baxdı.

Sonra dövlət başçısı zavodu işə salan düyməni basdı.

Məlumat verildi ki, burada üzümün qəbulu, fermentləmə, texnoloji emal, markalı şərabların istehsalı və qablaşdırma sexləri yaradılmışdır. Üzümün qəbulu sexində ağ və qırmızı üzüm növləri üçün iki qəbuledici bunker, üzüməzən avadanlıq quraşdırılmışdır. Burada iki xətt ağ və qırmızı, bir xətt isə elit şərabların istehsalı üçün nəzərdə tutulmuşdur. Sexdə, həmçinin Azərbaycanda ilk dəfə üzümün tumlarını ayıran qurğu da quraşdırılmışdır. Digər sexlər də ən son avadanlıqla təchiz edilmişdir. İstehsal prosesi kompyuterləşdirilmiş sistemlə idarə edilir.

Qablaşdırma sexi ilə tanışlıq zamanı bildirildi ki, burada qurulmuş müasir avadanlıq saatda 3 min şüşə şərab doldurmağa imkan verir. Bu zavodda ilkin mərhələdə süfrə şərablarının istehsalı nəzərdə tutulmuşdur. Sexdə qablaşdırılan şərablar “Çinar” markasının texnologiyasına uyğun hazırlanır. İstehsalın sonrakı mərhələsində “Şəki”, “Çələbi”, “Karvansaray”, “Xan sarayı” adı ilə şərabların istehsalı planlaşdırılır. İstehsalın üçüncü mərhələsində, yəni 2012-ci ildən kəmşirin, portveyn və desert tipli şərabların istehsalına üstünlük veriləcəkdir. İstehsalın dördüncü mərhələsində isə konyak spirti və konyak istehsalı sexinin yaradılması planlaşdırılır. Şərab zavodunda istehsal üçün üzüm məhsulunun tədarükündə Şəki ilə yanaşı, əsasən Oğuz və Qəbələ rayonlarının potensialından da istifadə olunacaqdır. Kənar asılılıqdan yaxa qurtarmaq məqsədi ilə müəssisənin nəzdində 200 hektar üzüm bağı salınması nəzərdə tutulur. Üzüm bağlarının salınması zamanı yerli sortlara – “Mədrəsə”, “Bayanşirə” və “Şirvanşah”a üstünlük veriləcəkdir.

Dövlətimizin başçısı istehsalat korpusunda hazır məhsulun saxlanması anbarı ilə tanış oldu. Bildirildi ki, markalı şərabların istehsalı sexində Fransadan gətirilmiş palıd ağacından hazırlanan, hər biri 228 litrlik çəllək qoyulmuşdur. Bu, şərabın daha yüksək keyfiyyətlə saxlanmasına imkan verir.

Qeyd edildi ki, məhsulun rəqabətədavamlı olması məqsədi ilə zavodda quraşdırılan avadanlığın hamısı İtaliyanın bu sahədə ixtisaslaşmış şirkətinin istehsalıdır. Texnoloji avadanlığın daşınması, quraşdırılması və sınaqları da italiyalı mütəxəssislərin rəhbərliyi və iştirakı ilə aparılmışdır. Zavodun ərazisində ikimərtəbəli inzibati bina, istehsalat proseslərinə və hazır məhsullara texniki-kimyəvi və mikrobioloji nəzarət üçün laboratoriya, yeməkxana, konfrans zalı yaradılmışdır. Burada, həmçinin qonaq evi də inşa olunmuşdur. Zavodun həyəti də abadlaşdırılmış, yaşıllıq zolağı salınmışdır.

Prezident İlham Əliyev görülmüş işləri yüksək qiymətləndirdi, kollektivə uğurlar arzuladı.



Şəkildə: Prezident İlham Əliyev Şəki şərab zavodunun qablaşdırma sexi ilə tanışlıq zamanı

**İlham Əliyev Şəkidə Sabit Rəhman adına Dövlət Dram Teatrının binası ilə tanış olmuşdur**

Prezident İlham Əliyev Şəkiyə səfəri çərçivəsində Sabit Rəhman adına Dövlət Dram Teatrının binası ilə tanış olmuşdur.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev dövlətimizin başçısına məlumat verdi ki, 1973-cü ildə ipəkçilərin mədəniyyət sarayı kimi fəaliyyətə başlamış bu bina iki ildən sonra Sabit Rəhman adına Dövlət Dram Teatrının kollektivinin ixtiyarına verilmişdir. Teatr maraqlı çıxışları ilə təkcə Şəkinin deyil, ölkəmizin bütün sənətsevərlərinin rəğbətini qazanmışdır. Teatr binasının uzun müddət əsaslı təmir olunmaması kollektivin fəaliyyətinə təsirsiz ötüşməmişdir. Prezident İlham Əliyevin Sərəncam və göstərişləri əsasında indi ölkəmizin bütün tarixi abidələri, sənət ocaqları əsaslı şəkildə yenidən qurulur. Buna uyğun olaraq, Şəki Dövlət Dram Teatrının binasının da əsaslı təmiri planlaşdırılır.

Dövlət başçısı təmir-bərpa işlərinin yüksək səviyyədə aparılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

**www.president.az**

# Rejissor Ramiz Həsənoğlu Şəkidə Mirzə Fətəli Axundov haqqında film çəkir



*Mirzəyev Ramiz Həsənağa oğlu (Ramiz Həsənoğlu) — əməkdar incəsənət xadimi, Azərbaycanın xalq artisti, tanınmış teatr, kino və televiziya rejissoru.*

*Ramiz Həsənoğlu 1946-cı ildə İrəvan şəhərində dünyaya göz açıb. Anası Azərbaycan milli teatr sənətində bənzərsiz ifa qabiliyyəti olan, əməkdar artist Ətayə Əliyeva, atası əməkdar mədəniyyət işçisi Həsənağa Mirzəyevdir. 1948-ci ildə ermənilərin yenidən azğınlaşmasından sonra İrəvan teatrının kollektivi qonşu Azərbaycana üz tutur. 2 yaşlı R.Həsənoğlu valideynləri ilə birlikdə Gəncə şəhərinə köçür. 1956-cı ildə Bakıya gəlirlər. Ramiz 1965-ci ildə orta məktəbi bitirib Azərbaycan Dövlət Teatr İnstitutunun mədəni-maarif fakültəsinin qiyabi şöbəsinə qəbul olunur. 1966-cı ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində rejissor köməkçisi işləməyə başlayır. Ağaəli Dadaşov, Rauf Kazımovski, Arif Babayev kimi görkəmli sənətkarlardan bu sənətin sirlərini öyrənir.*

“Bakıda yağış yağır, Şəkidə gün çıxıb!”

Bu sözləri “Azadlıq” radiosunun “İz” proqramına Şəkidə Mirzə Fətəli Axundov haqqında film çəkən rejissor Ramiz Həsənoğlu söylədi. Ramiz bəy xoş havadan başqa daha nədən danışdı? Onunla atüstü müsahibə ilə tanış olun.

–Ramiz bəy, xoş gördük! “Sübhün səfiri” filminin çəkilişləri necə gedir?

–Yaxşıdır. Deyirlər Bakıda yağış yağır. Amma Şəkidə gün çıxıb. Odur ki, işlərimiz yaxşı gedir. Göz dəyməsin! Azərbaycanda 9 iqlim qurşağı var. Bu mənada bəxtimiz gətirib.

**ŞƏKİ TİFLİSİN “ŞEYTANBAZARI”NA BƏNZƏYİR**

–Bakıda çəkilişlər bitdi?

–Yox. Hələ bitməyib. Çəkilişlərin böyük bir qismi Şəkidə planlaşdırılır. Burada biz Mirzə Fətəlinin həyatının Şəki dövrünü deyil, Tiflis dövrünü də çəkməyi planlaşdırırıq. Çünki Şəkinin küçələri, ab-havası Tiflisin “Şeytanbazarı”na çox uyğundur. Odur ki qərar verdik ki, çəkilişləri davam etdirək.

–Belə çıxır, Tiflisə getməyə gərək qalmayacaq?

–Yox, nə danışırsınız…Tiflisə gedəcəyik. Tiflisdə gerçəkləşdiriləcək bəlli planlar var. Onu orada çəkməliyik. Tiflisin fonu, girəcəyi-filan… Hətta kiçik epizodları Tiflis küçələrində çəkmək fikrindəyik. Amma böyük ölçülü planları Şəkidə çəkəcəyik.

**“BRÜSSELDƏN MƏKTUBLAR” FİLMDƏ DƏ OLACAQ**

–Bəs Bakıda hansı hissələr çəkildi, hansılar qaldı?

–Bakıda Mirzə Fətəlinin evinin içində baş verənlər çəkidi – pavilyonda. Bilirsiniz ki Mirzə Fətəlinin oğlu Rəşid Brüsseldə oxuyub və atasıyla məktublaşıb. Brüssel həyatını Bakıda planlaşdırmışıq.

–Ramiz bəy, lütfən, “Azadlıq” Radiosunu dinləyənlərə və saytımızın oxucularına yaradıcı qrup barədə bir az bilgi verin …

–Məmnuniyyətlə. Ssenari müəllifi Anardır. Quruluşçu operator Kənan Məmmədovdur – Azərbaycanın çox tanınmış operatorudur. Quruluşçu rəssam Rafiz İsmayılovdur. O da tanımış rəssamdır. Hər ikisi Azərbaycan kinosuna 40 ildən çox əmək verən insandır. Bəstəkarı Cavanşir Quliyevdir. Biz Cavanşirlə 10-dan artıq layihə üzərində birgə çalışmışıq. Filmdə çəkiləcək aktyorlardan söhbət gedəcəksə…

**YETKİN MİRZƏ FƏTƏLİNİ… RASİM BALAYEV OYNAYACAQ**

–Əlbəttə, gedəcək! Mənim növbəti sualım elə bu olacaqdı… (Gülüşmə) Mirzə Fətəli obrazını kimin canlandırması hamı üçün maraqlı olsun gərək.

–Mirzə Fətəlinin həyatını ssenaridə bir neçə mərhələdə əhatə edirik. Ona görə bu obrazı üç aktyor canlandıracaq. Balaca Fətəli – 8-10 yaşlı, gənc Fətəli—16-20 yaşlı və yetkin Fətəli – 50 ilə 66 yaş arası. Rasim Balayevin canlandırdığı yetkinlik dövrünə ssenaridə daha çox yer ayrılıb. Mirzə Fətəlinin həyat yoldaşı Tubu xanımı Məlahət Abbasova oynayır. Bilirsiniz ki o, Türkiyədə fəaliyyət göstərir, amma bizim filmdə də çəkiləcək. Qızı Nisə xanımı gənc aktrisa Günəş canlandıracaq. Filmdə Azərbaycanın tanınmış aktyorları çəkilir. Abbasqulu ağa Bakıxanovu Fəxrəddin Manafov oynayır, Mirzə Şəfi Vazehi Ayşad Məmmədov. Axund Hacı Ələskər rolunda Bəxtiyar Xanızadə çəkilir. Həsən bəy Zərdabini Məmməd Səfa canlandırır... Anar ssenarini elə qurub ki, Mirzə Fətəlinin bədii yaradıcılığı sanki şəxsi həyatı ilə bir-birinə hörülüb.

**OYAN, FƏTƏLİ, ANAN GEDİR!**

–Ramiz bəy, bir sirri bizə açarsınızmı? Filmdə Fətəlinin Xamnə dövrü əks olunubmu? Yəni tarixdəki kimi, bacısının onu yuxudan oyadıb “anan gedir, Fətəli, oyan, bir də onu görməyə bilərsən”– dediyi o tarixi an varmı ssenaridə?

– Sevda xanım, onlar hamısı filmdə əksini tapıb! Hətta o epizodu çəkmişik. Cənubi Azərbaycandakı Xamnə kəndini biz Bakının Qala kəndiylə əvəzlədik. Rəssam və operatorumuz o yeri seçdilər. Çox uyğundur – dedilər. Yaxşı da alındı. Yəni Bakıda müəyyən hissələr çəkdik. İndi burada havadan ehtiyatlanırıq ki, birdən korlanar. Üzü qışa gedir. Havalar qarlı-yağışlı ola bilər. Amma şükür, havalar hələ ki, imkan verir natura hissələrini çəkməyə. Bir-iki həftə də belə davam etsə, işlərimizi bitirəcəyik. İnşallah, Yeni il ərəfəsində də İstanbulda çəkilişlərimiz olacaq.

–Bəli, bəli. Axı, Mirzə Fətəli əlifbanın dəyişdirilməsiylə bağlı İstanbula səfər edib vaxtilə…

–Elədir. Rəfa məclisində oranın bilim adamlarıyla görüşüb və nəticədə cəhdi uğursuz alınıb – bütün bunlar da ssenaridə əksini tapıb.

–Və nəhayət, Ramiz bəy, filmi nə vaxt görə biləcəyik?

– Filmin çəkilişləri fevralda bitməlidir. Gələn il Mirzə Fətəli Axundovun da 200 illik yubileyidir. Allah bizə yar olsa, o böyük yubileyə filmi bitirmək istəyirik. Payız aylarında – yubiley günlərində filmin göstərilməsi planlaşdırılır.

–Ramiz bəy, təşəkkür edirəm müsahibə üçün. Sizə xoş hava arzulayıram. Ümid edirəm ki, filmin çəkilişləri bitəndən sonra AzadlıqRadiosuna qonaq gələcəksiniz.

– Böyük məmnuniyyətlə!

Sevda İsmayıllı
05.11.2011

# “Şəki-İpək” ASC-nin Toxucu istehsalatında Almaniya istehsalı olan yeni dəzgahlar quraşdırılır

**F O T O - R E P O R T A J**



Şəkildə: Toxucu istehsalatının mexaniki Rəfael bəy yeni quraşdırılmış əriş sarıyıcı dəzgahın qarşısında



Şəkildə: Almaniyadan gəlmiş qurşdırıcı – Mixail və onun şəkili tərcüməçisi Roman



Şəkildə: Almaniyadan satın alınmış yeni toxucu dəzgahı



Şəkildə: mexanik köməkçisi Murad bəy iş baçında

## Vətən tarixi

# Seyid Əli Orlat

*15-ci əsrin 4-cü rübündə hakimiyyətdə olmuş Şəki hökmdarı. Şəki-Kaxetiya hökmdarı II Axsartandan sonra - yəni 11-ci əsrin 3-cü rübündən sonra, adı məlum olan ilk Şəki hökmdarıdır. "Seyid" titulu daşıdığına görə onun Məhəmməd peyğəmbərin nəslindən olması, adına əlavə edilən "orlat" sözünə görə isə onun monqol mənşəli orlat tayfasından olması müəyyənləşir.*

### 1384-cü ildə Əmir Teymurun İran yürüşlərinə başlaması və məktubunda "Şəki və Şirvan əmirləri" ifadəsini işlətməsi

14-cü əsrin 70-ci illərində Orta Asiyada – Cağatay ulusunun qərb hissəsində, hakimiyyəti ələ keçirən Əmir Teymur, ömrünün sonuna qədər yalnız baş əmir olsa da, əslində, tarix səhnəsində yeni bir imperiyanın bünövrəsini qoymuş oldu. O, 1384-cı ildə ilk İran yürüşünü edir və Zəncana qədər irəliləyir. Lakin tezliklə geri dönür və bir ildən sonra ikinci İran yürüşünə başlayır. Onun təxm. 1386-cı ilin 2-ci yarısında Mazandaran hakimi Seyid Əli Kiyaya göndərdiyi məktubunun əvvəlində hər iki yürüşün bəzi təfərrüatı xatırlanır və buna əsasən də məlum olur ki Əmir Teymur ikinci İran yürüşünə 1385-ci ildə başlamamışdan öncə, həmin istiqamətdəki, o cümlədən Cənubi Qafqazdakı hakimlərlə əlaqə yaratmış, onları tərəfdaşlığa dəvət etmiş, əvəzində isə, bir çoxundan, o cümlədən hansısa "*Şəki əmiri*"ndən, yaxud "*Şəki əmirləri*"ndən rədd cavabı almışdır. Heç şübhəsiz ki bu Əmir Teymurun 1384-cü ildəki birinci İran yürüşü zamanı baş vermişdi. Məktubda adları sadalanan, Əmir Teymura qarşı şərti koalisiya yaratmış yerli hakimlərin idarəçiliyindəki ərazilərin nəyə görə 1384-cü il yürüşündən kənarda qaldığının və nəyə Əmir Teymurun o vaxt Zəncandan irəliyə gedə bilmədiyinin səbəbi isə həmin sənəd əsasında aydınlaşır: Əmir Teymurun 1-ci İran yürüşü zamanı da Kiçik Lor hakimi Məlik İzzəddin, Cəlair padşahı Sultan Əhməd (1382–1393; 1405–1412), "Kürdüstan məlikləri", Gürcü çarı V Baqtrat (1360–1393), Şirvanşah İbrahim (1382–1417) və Şəki hökmdarı (yaxud: əmir(lər)i) Əmir Teymura qarşı birgə mübarizə apara bilərdilər! Bəli, sonralar Əmir Teymur öz "memuar"larında etiraf edir ki: "*Bu zaman ağlıma belə bir fikir gəldi ki əgər həmin məmləkətlərin padşahları ittifaq bağlayaraq mənə qarşı birləşsələr necə olacaq? Özüm belə qərara gəldim ki, həmin məmləkətlərin padşahlarını ayrı-ayrılıqda tabe etmək, itaətə gəlməyənləri isə cəzalandırmaq lazımdır!*".

Lakin müttəfiqlərə qarşı Qızıl Orda xanı Toxtamışın (1380-1396) timsalında ikinci bir fövqəldüşmənin də peyda olması ilə bu "koalisiya" dağıldı. Onların ərazilərinin isə Əmir Teymur tərəfindən tezliklə və asanlıqla işğal edilməsi üçün şərait yarandı...

### 1386-cı ildə Əmir Teymurun Şəkiyə gəlib çıxması və Şəkini talan etdirməsi

1385-ci ilin əvvəllərində Toxtamış xanın 90 minlik ordusu Şirvandan keçərək Azərbaycana soxuldu. Qızıl Ordalılar Təbrizi 8 gün mühasirədə saxlayıb son nəhayətdə onu hiylə ilə ələ keçirə bildilər. Əmir Teymur isə eyni vaxda Kiçik Lor və Kürdüstana yürüş etdi. Az müddətdən sonra Qızıl Ordalılar Azərbaycan vilayətindən əsir götürdükləri 200 min nəfərlə birlikdə geri döndülər. Bu zaman Əmir Teymur əvvəlcə, öz adamlarından bir qrupunu, hələ ilk İran yürüşü zamanı onun tərəfinə keçmiş olan Cəlair əmirlərindən Adil ağa ilə Təbrizə göndərdi. Onlara qarşı heç bir ciddi müqavimətin baş vermədiyini gördükdən sonra isə özü də ordusunun əsas hissələri ilə birlikdə bura gəldi...

1385-ci ildə Təbrizdə üzərində Cağatay ulusunun xanı – Soyurqatmış (1370–1388) və baş əmiri – Əmir Teymurun adları həkk olunmuş sikkələr zərb edildi. O ki qaldı həmin vilayəti təslimə hazırlamış yerli əmir Adil Ağanın aqibətinə, bu iş çox acınacaqlı qurtardı; onu Əmir Teymurun göstərişinə əsasən yaxın adamları ilə birlikdə işgəncə ilə öldürdülər. Beləliklə, Əmir Teymur Azərbaycan vilayətini çox asanlıqla ələ keçirdi. 1386-cı ilin payız fəslinin əvvəllərində isə ətrafdakı digər əraziləri də istila etmək üçün öz ordusu ilə Təbrizdən çıxıb şimal-qərb istiqamətində hərəkətə başladı. Tezliklə Gürcüstana çatdı, oradan da Şəkiyə keçdi… O, özü bütün bunlar barədə elə həmin – yuxarıda qeyd olunan, məktubunda yazır və "*Şəki əmir(lər)i*" ifadəsini bir daha işlədir: "*Şirvan və Şəki vilayətinin əmirləri, hamısı ki qarşıdurma göstərirdilər, əzilmiş oldular və onlar ki Aləm Pənahın (Ə. T.-un) dərgahına iltica gətirdilər, vilayət və nahiyələri onlara tapşırılmış oldu*". Nizaməddin Şami və Şərafəddin Əli Yəzdinin eyniadlı əsərlərinə – "Zəfərnamələr"ə, görə Əmir Teymur Tiflisi fəth etməsindən və Gürcü çarı Baqratı əsir götürməsindən sonra Şəki ölkəsininin ərazisi ilə hərəkət edərək "Qəbələ məkanına" çatmış, sonra Sorxab qalasını tutmuş və Kür çayını keçərək Qarabağa qışlamağa getmişdir. "Zəfərnamələr"ə görə Əmir Teymur Şəki ölkəsi ərazisindən keçərkən, "lakzi"lərə hücum etmiş, bu ölkənin hər yerinə, o cümlədən *Ağcəb*, *Səkğut* vilayətlərinə talançı dəstələr göndərmişdir.

Əmir Teymur 1387-ci ilin yaz fəslinin əvvəllərinə qədər Qarabağda qaldı. Burada Şirvanşah Şeyx İbrahim layiqli hədiyyələrlə onun yanına gəldi və hörmətlə qarşılandı.

Əmir Teymur yayda Göyçə gölü ətrafına yaylmağa qalxır. Daha sonra isə həmin tərəflərdə Cəlairlərin yeganə müqavimət ocağı olan Alıncaq qalasının mühasirəsində şəx-sən iştirak edir. Lakin heç bir müvəffəqiyyət qazana bilmir. O, qışı Rey yaxınlığında keçirməyi planlaşdırdığı vaxt xəbər gəlir ki, Toxtamış xanın qoşunları Buxara və Səmərqəndə yürüş edibdir. Buna görə də Əmir Teymur öz ordusu ilə təcili surətdə geri qayıtmağa məcbur olur.

Əmir Teymurun Orta Asiyaya dönməsindən sonra düz 6 il ərzində Azərbaycan və İraq-i Əcəm vilayətlərində anarxiya mövcud oldu. Belə ki bu müddət ərzində Cəlair sultanı Bağdaddan kənara çıxmadı və sözgedən vilayətlərin idarəsini yerli əyanların öhdəsinə buraxdı…

### 1394-cü ilin sentyabr ayında Əmir Teymurun Şəkiyə 2-ci hücumu və Şəki hökmdarı Seyid Əli Orlatı təqib etməsi

6 ildən sonra yenə – 3-cü dəfə, İran istiqamətində yürüş edən Əmir Teymur, 1393-cü il yanvar ayının 27-də Sultaniyyədə məskən saldı. 3-cü İran yürüşü də Şəkidən yan keçmir. Belə ki, Əmir Teymur Gürcüstandan sonra 1394-cü ilin sentyabr ayında Şəki ölkəsinin ərazisinə girdi və ilk olaraq "*vilayət-e Bərtaz*"ı talan etdirdi. Daha sonra Şəki ölkəsinin dağlıq tərəflərinə – Seyid Əli Orlatın üstünə, qoşun göndərdi. "Zəfərnamə"lərə görə bu zaman Seyid Əli Orlat "*mülk və malını atıb qaçmaq yolunu tutdu*".

Əmir Teymur 1394-cü ilin sonunda – qış fəsli başlayanda, ordusunu Şəki hökmdarının ərazisindən çıxarıb Kür mənsəbi yaxınlığındakı Mahmudabad şəhəri ətrafına, qışlamağa apardı. Yaz gələndə – 1395-ci il fevralın 28-də, ordunu şimal istiqamətində hərəkətə gətirib Toxtamış xan üzərinə yürüşə başladı. Bir daha 1396-cı ilin yazında oradan geri dönən Əmir Teymur, Dərbənd, Şabran, Aqtam səhrası (Muğanın şimalı), Ərdəbil və Sultaniyyədən keçməklə Həmədana gəldi, buradan isə iyulun 18-də Səmərqəndə yola düşdü.

### 1396-cı ilin 2-ci yarısınadək Seyid Əli Orlatın Əmir Teymurun oğlu Əmiranşahın yanına getməsi ehtimalı

Əmir Teymur öz imperiyasının paytaxtında da çox qərar tutmur və 1398-ci ilin avqustunda Hindistana yürüş edir. O, bundan əvvəl, İrandan qayıdarkən Azərbaycan vilayətinin və onun ətrafındakı ərazilərin idarəsini öz oğlu Əmiranşahın ixtiyarına buraxmışdı. Şərafəddin Əli Yəzdiyə görə Əmirzadə Əmiranşah Azərbaycan taxtgahını və Hülaku xan ulusunu elə məharətlə idarə edirmiş ki, "*ətarf və əknafın heç bir padşah zamanında itaət etməmiş sərdarları*" onun yanına gəliblərmiş. Həmin müəllifin bu sözlərinə və müvafiq hadisələrin sonrakı gedişatı barədə yenə onun və həm də Nizaməddin Şaminin qələmə aldıqlarına əsasən güman etmək mümkündür ki, 1396-cı ilin payızına qədər, yəqin ki Şəki hökmdarı Seyid Əli Orlat da Əmirzadə Əmiranşahın yanına gedibmiş.

### 1397, yaxud 1398-cü ilin payızında Əmir Teymurun oğlu Əmiranşahın "*ağlının azalması*" və Şəkini talan etdirməsi

"Zəfərnamə"lərə görə, 1396-cı ildə (payıza qədər) Əmirzadə Əmiranşah Xoy ətrafında ov edərkən atdan yıxılmış və beyni silkələnmişdir. Bu hadisədən sonra isə ağlı sürətlə azalma başlayır, nəticədə bir sıra qeyri-düzgün işlərə yol verir. O cümlədən, 1397, yaxud 1398-cü ilin payızında, atasının əsas ordusunun ondan çox-çox uzaqlarda olmasını nəzərə almayaraq Şəkiyə qoşun çəkmiş və bu ölkəni qarət etdirir.

### 1399-cu ilin yanvar ayında Seyid Əli Orlat ilə gürcülərin birlikdə Naxçıvan tərəfə getmələri və Sultan Tahiri Teymurilərin mühasirəsində olan Alıncaq qalasından çıxarmaları

"Zəfərnamə"lərə görə məhz Əmirzadə Əmiranşah tərəfindən Şəkinin talan etdirilməsinə cavab olaraq Seyid Əli Orlat Sultan Tahiri teymurilərin mühasirəsində olan Alıncaq qalasından çıxartmaq üçün gürcülərlə birlikdə ora – həmin qalanı mühasirədə saxlayan teymurilərin üstünə getmişdir...

Naxçıvan şəhəri tərəflərdəki həmin istehkamda Cəlairlərin illər boyu topladıqları böüyk bir xəzinə saxlanılırdı və qala neçə il idi ki Sultan Əhmədin oğlu Sultan Tahir və Cəlair əmirlərindən Əmir Altunun başçılığı ilə Əmir Teymurun qoşunlarından müvəffəqiyyətlə müdafiə olunurdu. Teymuri əmirləri növbə ilə Alıncaq qalasını mühasirə etməkdə idilər və son nəhayətdə bu iş Əmir Teymur tərəfindən Hacı Seyfəddinin oğlu Sultan Səncərə və Əmirzadə Əmiranşahın məxsusi qoşunlarına tapşırılmışdı.

O dövrlərdə Alıncaq qalasını görmüş İspaniya səfiri Klavixo (vəfatı:1412) onu belə təsvir edib: "*O dağın başında yerləşib, divar və bürclərlə əhatə olunub, divarlardan içəridə isə çoxlu üzümlüklər, bağlar, becərilmiş sahələr, çoxlu su və otlaqlar; dağın lap başında isə qəsr durur*".

Bu ərəfələrdə, Alıncaq qalası daxilində nizam-intizam xeyli zəifləmişdi. Qalanın müdafiəsinə məsul olan şəxslər bir-birləri ilə yola gedə bilmirdilər. İbn Ərəbşahın yazdığına görə, hətta iş o yerə gəlib çatmışdı ki, qalanı müvəqqəti tərk etmiş Əmir Altun geri döndükdə onu içəri buraxmamışdılar…

Həmin illərdə Sultan Əhməd Cəlayırin əlində yalnız Bağdad və İraq-i Ərəbin bir hissəsi qalmaqda idi. Lakin Gürcü çarı Georgi hələ də Cəlairlərin ali hakimiyyətini tanımaqda idi və Tiflisdə kəsdirdiyi sikkələr üzərində Sultan Əhmədin adını öz adından əvvəl vurdururdu. Yəqin ki 1399-cu ilin başlanğıcında gürcülərlə Şəki hökmdarının Alıncaq qalasına birlikdə etdikləri hücumun sifarişçisi də Sultan Əhməd idi və bu işdə əsas məqsəd isə Əmir Teymurun gözlənilən növbəti İran yürüşünə qədər, xəzinənin oradan çıxarılması imiş.

Gürcülərlə Şəki hökmdarının qoşunları Alıncaq istehkamına yaxınlaşanda o vaxta qədər qalanı mühasirədə saxlayan teymurilər qalanın ətrafından çəkilməyə məcbur olurlar və Sultan Tahir xəzinəni də götürüb qaladan çıxır.

Sultan Səncər isə Təbrizə gedir və hadisə barədə Əmiranşaha məruzə edir. "*Həmin saat Əmirzadə Əmiranşah Əmirzadə Əbubəkrə, hazır ləşgərlərlə ilğar* (çevik hücum), *buyurub, Seyid Əlinin dəfinə göndərdi*".

### 1399-cu ilin yanvar ayında Alıncaq qalası yaxınlığında baş vermiş döyüş və bu döyüşdə Seyid Əli Orlatın həlak olması

Müttəfiqlər geri qayıtmaqda ikən yolda Miranşahın oğlu Əbubəkr mirzənin başçılığı altında Təbrizdən "*ilğar*" edən ordu arxadan onlara çatır. Müttəfiqlər bunu görən kimi geri dönüb teymurilərin üstünə gedirlər. Seyid Əli Orlat isə mərkəzdən irəli çıxıb intiqam almaq üçün gənc Əbubəkr mirzənin üstünə şığıyır. Lakin bu zaman, təfadüfən, Əbubəkr mirzənin atdığı oxlardan biri Seyid Əlinin dəbilqəsinin zireh ətəyini deşərək boynuna sancıldı və "*həmən bir yaraya atının belindən yıxıldı və həlak oldu*". Bu uğursuzluğa baxmayaraq, müttəfiqlər hücumu davam etdirirlər və Əbubəkr mirzənin ordusunu qaçmağa məcbur edirlər. Əbubəkr mirzə özü sağ-salamat Təbrizə – Əmiranşahın yanına, qayıdır və bundan sonra onlar bir adamı Əmir Teymurun yanına yollayırlar ki, onu da son hadisələrdən xəbərdar etsinlər.

### Seyid Əli Orlatın həlak olduğu Alıncaq yaxınlığınakı döyüşün baş verdiyi vaxtın müəyyənləşdirilməsi

Əmir Teymuru Hindistan yürüşü boyu müşayiət etmiş Qiyasəddin Əlinin yazdığına görə onlar geri dönərkən – 1399-cu ilin mart ayının 3-də, Cənavə çayı yaxınlığında Əmiranşahın yolladığı nökərlərlə qarşılaşıblar. Bu adamlar, təlimatlarına uyğun olaraq öz tərəflərində baş vermiş son hadisələr, o cümlədən Alıncaq qalası ilə bağlı son xəbərləri Əmir Teymura çatdırıblar. Onların Təbrizdən Hindistandakı Cənavə çayı yaxınlığına qədər təxm. 3 min km.lik yolu neçə günə qət etdiklərini bilsəydik, həm də Alıncaq qalası ətrafında baş vermiş məlum hadisənin, o cümlədən Şəki hökmdarı Seyid Əli Orlatın həlak olduğu vaxtı da dəqiqləşdirmiş olardıq. Lakin təəssüf ki, bu işdə məsələnin həllinə bir yox, iki nöqteyi-nəzərdən yanaşmaq lazımdır. Belə ki əgər Əmir Teymurun imperiyasında xüsusi yol xidməti olsaydı, Əmiranşahın yolladığı "*nökərlər*"in mənzil başına çatmaları üçün bir ay kifayət edərdisə, adi halda bunun üçün iki dəfə çox müddət tələb olunmaqdadı. Amma hər halda, sözgedən Alıncaq qalası hadisəsinin vaxtı ilə Seyid Əli Orlatın hakimiyyətinin başa çatması, yəni onun həlak olma tarixini şərti olaraq 1399-cu ilin yanvar ayı hesab etmək mümkündür.

**Aydın Məmmədov**

## Hacı Çələbi xanın 1749-cu ildə Nuxa (indiki Şəki) şəhərində tikdirdiyi məscidin kitabəsi

# itdi, ya itirildi?!



**Tərcüməsi:** ***"Bu şərəfli məscidi Hacı Çələpi sultan ibn Qurban, Şəki hakimi, Şirvan əmiri, 1162-ci il Allahın mübarək ramazan ayı tarixində tikdirdi".***

Əlavə edək ki hicri 1162-ci ilin ramazan ayının 1-i miladi 1749-cu ilin 15 avqustuna na təsadüf edir.

O ki qaldı kitabəyə, o, 20-ci əsrin əvvəllərində Gilək məscidinin yaxınlığında, torpaq altından tapılmış və həmin məscidin yaxınlığında bulağın üstünə pərçim edilmişdir. 1936-cı ildə "А.А.Алескерзаде" onu görmüş, foto-şəklini çəkdirmişdir və daha sonra bu kitabə barədə elmi xəbər yaymışdır (Изв.АзФАН.№1.1943, с.67). Sonralar da həmin xəbər və foto-şəkil bir neçə dəfə elmi nəşrlərdə dərc olunmuşdur. Burada isə Meşədixanım Nemətin 2001-ci ildə nəşr olunmuş kitabına istinad edilir (М.С.Неймат. Корпус эпиграфических памятников Азербайджана, т.2, 295, Баку, 2001). Kitab müəllif tərəfindən şəxsən bizə həfiyyə verilmişdir. Onu da əlavə edək ki kitabənin sonrakı taleyi məlum deyil və hal-hazırda itmiş hesab oluna bilər; belə ki o 1936-cı ildəki yerində deyil və hansısa muzeydə saxlanılması da qeyri-məlumdur.

**A. Məmmədov**

## TƏBRİK

***Oktyabrın 18 də Prezident İlham Əliyev Dövlət müstəqilliyinin 20 illiyi ilə əlaqədar bir qrup şəxsi təltif etmişdir. Fərəhləndirici haldır ki, təltif olunanlar sırasında həmyerlimiz, Şəki şəhər İcra hakimiyyəti başçısının təhsil, səhiyyə və mədəniyyət üzrə müavini, tarix elmləri namizədi Zərinə xanım Əliəkbər qızı Cavadova da vardır. Zərinə xanım Respublikasının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında əhəmiyyətli xidmətlərinə görə "Tərəqqi" medalına layiq görülmüşdür.***

**Bu münasibətlə, "Şəki-İpək" ASC rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi, "İpəkçi" qəzeti redaksiyası və oxucuları Zərinə xanımı təbrik edir və ona siyasi-ictimai fəaliyyətində yeni-yeni uğurlar arzulayır.**



*Zərinə xanım Əliəkbər qızı Cavadova*

## Şəki-Zaqatala bölgəsində də intellektual radarlar qurulacaq.

Gün.Az-ın Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə istinadən verdiyi xəbərə görə, artıq yol sahəsində təmir və yenidən-qurma işlərindən sonra layihə reallaşacaq.

Hazırda bu tip radarlar paytaxtın şimal, cənub və cənub-qərb istiqamətində olan magistral yollarında qurulub.

Bu radarların köhnələrdən fərqi proqram əsasında fəaliyyət göstərməsi və ağıllı videokamera sisteminə malik olmasıdır. Yeni texnologiya vasitəsilə axtarışda olan maşınları, həmçinin müxtəlif vaxtlarda qayda pozuntusuna yol vermiş avtomobilləri müəyyənləşdirmək asanlaşıb.

Həmçinin, ağıllı videokamera sistemi nömrə oxuma qabiliyyətinə malikdir. Bu sistem vasitəsilə vaxt və məsafə intervalına görə nəqliyyat vasitəsinin orta sürətini hesablamaq mümkündür.

*Nərmin Rəhimova*
*Gün.Az 19 Noyabr*

***

## Şəkidə orta məktəbin 180 illiyi keçiriləcək

***1831-ci ildə Şəkidə fəaliyyətə başlayan Qəza məktəbi nəinki burada, eləcə də bölgədə maarifin inkişafına, onun yeni, dünyəvi xarakter daşımasına təkan verib.***

Gün.Az-ın bölgə müxbiri Şəki rayon İcra Hakimiyyətinə istinadən bildirir ki, gələn ay Şəki qəza məktəbinin davamçısı hesab olunan 5 saylı orta məktəbin fəaliyyətə başlamasının 180 ili tamam olur.

Rayon İcra Hakimiyyətinin başçısı Elxan Usubov Azərbaycanda zəngin tarixə malik olan məktəbin yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

Sərəncamda qeyd olunur ki, Şəki qəza məktəbinin yetirmələri sırasında Azərbaycan dramaturgiyasının banisi, məşhur yazısı və filosof Mirzə Fətəli Axundov yer alır. Bu məktəbdə sonralar Rəşid bəy Əfəndiyev, Salman Mümtaz, Heydər Əfəndiyev, Sabit Rəhman, Əbdüləziz Dəmirçizadə, Əlövsət Sadıqov, Şirməmməd Hüseynov kimi görkəmli insanlar təhsil alıb.

Tədbirlərin yüksək səviyyədə keçirilməsi məqsədilə ziyalılardan ibarət təşkilat komitəsi yaradılıb.

*R.Abdulov*
*Gün.Az, 14 Noyabr*

## Dünya şöhrətli norveçli səyyah və alim Tur Heyerdalın ailə üzvləri Şəkidə olublar

AzərTAc xəbər verir ki, norveçli qonaqların Şəki ilə tanışlığı Kiş kəndində yerləşən qədim alban məbədini ziyarətlə başlamışdır. Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov kəndin girəcəyində qonaqları qarşılamışdır. Abidə ilə tanışlıq zamanı qonaqlara məlumat verilmişdir ki, bu məbəd eramızın birinci əsrində Qafqaz Albaniyasında geniş yayılan Ay məbədinin özülü üzərində qurulmuşdur.

Əhəng daşından tikilən bu abidə erkən orta əsrlərdə yaranan ilk gümbəzli, zal tipli məbəddir. 2001-ci ildə abidədə Azərbaycan-Norveç birgə "Kiş" layihəsi üzrə bərpa işlərinə başlanılmış, 2003-cü ilin sentyabrında məbədin açılışı olmuşdur. Layihə məşhur alim Tur Heyerdalın dəstəyi ilə həyata keçirilmişdir.

2008-ci ildə Norveçin Azərbaycandakı səfirinin iştirakı ilə məşhur səyyahın abidənin yaxınlığında qoyulmuş büstünün açılış mərasimi keçirilmişdir. Hazırda məbəd tarixi-memarlıq abidəsi kimi dövlət tərəfindən qorunur.

Atasının büstü önündə jurnalistlərə müsahibə verən məşhur alimin oğlu bildirmişdir:

"Mən bilirəm ki, atam Azərbaycanı çox sevirdi, ölkənizi kifayət qədər yaxşı tanıyırdı. Atama olan sevginin nəticəsidir ki, məni burada gözlədiyimdən də yaxşı, mehriban qarşıladılar. Şəki əsrarəngiz təbiəti, qədim tarixə malik memarlıq abidələri ilə zəngin olan, insanlarının qonaqpərvərliyi və səmimiliyi ilə seçilən çox gözəl diyardır. İndi mən burada, bu qədim məbədin yanında, atamın abidəsi önündə dayanmağımdan böyük məmnunluq və qürur hissi keçirirəm".

Məbədlə tanışlıqdan sonra qonaqlar abidənin həyətində çay süfrəsinə qonaq olmuşlar.

Sonra Tur Heyerdalın ailə üzvləri Azərbaycan memarlığının şah əsərlərindən olan Şəki xanlarının sarayı ilə tanış olmuşlar. Qonaqlar sarayın həyətində xatirə şəkli çəkdirmişlər.

Şəkiyə səfərləri çərçivəsində norveçli qonaqlar XVIII əsrin sonu-XIX əsrin əvvəllərində inşa edilmiş "Yuxarı karvansara" mehmanxana kompleksində də olmuşlar. Burada qonaqların şərəfinə nahar verilmişdir. Şəhər icra hakimiyyətinin başçısı Elxan Usubov dünya şöhrətli səyyahın ailə üzvlərinə Şəki ilə bağlı xatirə hədiyyələri, kitab və bukletlər təqdim etmişdir. Qonaqlar səmimi qonaqpərvərliyə görə şəhər rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

***AzərTAc***
*30 oktyabr*

*Xatirələr dilə gəlir...*

# Məhyəddin Paşa oğlu Abbasov



Məhyəddin Paşa oğlu Abbasov, (10.02.1910 - 28.12.1974) Əməkdar mədəniyyət işçisi, "Şəki fəhəsi" qəzetinin sabiq redaktoru.

## O, Sovet dövründə B.Vahabzənin "Gülüstan" poemasını "Nuxa fəhləsi"ndə dərc etdi, onu niyə unuduruq?!

Aqillər deyiblər ki həyatdan kam alan, həyatı dərk edən insanları sevənlər savadlı sayılırlar, yalnız belələri sadəliyin təcəssümüdürlər. Bələlərinə bel bağlamaq olar, onlar ən faydalı, ən etibarlı adamlardır, əbəs yerə deyilməyib ki, "alim olmaq asandır, adam olmaq çətin".

1966-cı il dekabr ayının 1-i. "Nuxa fəhləsi" qəzetinin redaktoru Məhyəddin Abbasovla onun iş otağında üzbəüz oturmuşam. Mehribançılığı, qayğıkeşliyi ilk andan məni valeh etdi. Baxışlarından nur tökülürdü (Diqqətinizə təqdim etdiyim foto-şəklə baxsanız bunu yəqin edə bilərsiniz). Bir ərəb misalında deyilir ki "insanın hansı xasiyyətdə olmasını o, vəzifə başında olarkən bilmək olar". Duydum ki, belə alicənab şəxsiyyətlə – şəxslə yox ha, məhz şəxsiyyətlə, birgə işləməyə dəyər. Məhyəddin müəllim ixtisasca fizik olmasına baxmayaraq, həm də əsil tərbiyəçi, psixoloq idi. O, qəzet redaksiyasının iş üsullarından, jurnalistlik peşəsinin çətinliklərindən, lakin xalqa, dövlətə hədsiz yararlığından danışarkən və buna görə də yalnız və yalnız obyektiv, qərəzkarlıqdan uzaq olmaqla həqiqəti oxuculara çatdırmaqda məddahlığa, ikiüzlülüyə yol verməməklə hərəkət etmək yollarından bəhs etdi. Sonda mənə belə bir sual verdi: "Oğlum, sənə etibar edirəm, arxanda da dayanacağam, mənimlə işləməyə razısanmı?". Cəld cavab verdim: "Bəli! Mən elə sizin kimi ədalətli, sağlam düşüncəli bir adamla işləməyi qürur hesab edirəm".

Beləcə, həmin gündən Məhyəddin müəllimlə çiyin-çiyinə işləmək şərəfinə nail oldum. Düz 7 il onun rəhbərliyi altında redaksiyanın baş ədəbi işçisi kimi, qarşımda qoyulan bütün vəzifələri vicdanla yerinə yetirməli oldum. Yazılarımı elə tərzdə hazırlayırdım ki obyektivlik, həqiqət başlıca meyar təşkil edirdi. Bəzi yazarlar və bəzi jurnalist peşəsinin sahibləri kimi yalançılığa, şişirtmələrə yol vermirdim. Şüarım isə bu idi: "Şirin yalandansa, acı həqiqət yaxşıdır" və buna dönmədən əməl edirdim. Bir dəfə də olsa görməmişdim və eşitməmişdim ki redaktorumuz hansısa yazımda düzəlişlər və ya ixtisarlar etsin. O, bütün yazılarımı bəyənirdi. Bilirdi və yəqin etmişdir ki mən həmişə faktlara əsaslanıram, odur ki heç kimin qarşısında gözükölgəli deyiləm, şəxsi maddi maraq güdmürəm. Təsadüfü deyildir ki qəzet səhifələrində gedən bütün yazılarım namuslu, qeyrətli, həqiqəti sevən dəyərli oxucular arasında sevilə-sevilə oxunardı, qəbul edilərdi. Yazılarımı bəyənməyənlər də tapılırdı. Yalandan gözə kül üfürənləri, sözləri ilə əməlləri düz gəlməyənləri qəzet səhifələrində ifşa edəndə bir də görürdün redaksiyaya telefon zəngləri vurulur, redaktorumuzun yanına gəlib iradlarını bildirənlər peyda olurdu. Məhyyədin müəllim isə mənə özü kimi inandığından belələrini fakt qarşısında qoyub məndən də üzr istəmələrini tələb edib yola salırdı. Bəzi məqalələrim hətta şəhər partiya komitəsinin bir neçə büro iclasında ətraflı müzakirə olunardı, tənqidi yazılarımın "qəhrəmanlarına" partiya cəzaları verilərdi, bəzən də hətta tutduqları vəzifələrindən çıxarılardılar

Bəli, məhz Məhyyədin müəllimin təmiz əqidədə olması, başqa sözlə desəm, əsil kişi adam olması, fədakarlığı, prinsipiallığı, Vətənin və xalqın mənafeyini şəxsi mənafeyindən üstün tutması, yəni vəzifəsindən tamah məqsədilə istifadə etməməsi sayəsində onun rəhbərliyi dövründə "Şəki fəhləsi" qəzeti dövlət intizamının daha da möhkəmlənməsində, rayonumuzun o vaxtkı rəhbərliyinə sanballı köməkliklər göstərmişdir.

Məhyyədin Abbasov əsil insan, pedaqoq, jurnalist, dövlət xadimi və ictimai xadim kimi həyat yolu keçmişdir.

O, Böyük Vətən Müharibəsi iştirakçısı və əlili olmasına baxmayaraq arxa cəbhədə də fədakarlıqları ilə, mən deyərdim, həmişə xalq yolunda necə əzmkarlıqla mübarizə aparmaq, işləməkdə örnək idi. Onun sinəsini döyüş və əmək orden-medalları bəzəyirdi. O, habelə "Əməkdar mədəniyyət işçisi" fəxri adını daşıyırdı, uzun illər şəhər partiya komitəsinin büro üzvü və rayon Sovetinin deputatı olub. Mən onunla həmişə fəxr etmişəm. Bu gözəl insan, təbliğatçı və təşviqatçı, eləcə də nümunəvi təşçilatçı 1910-cu ilin ferlal ayının 10-da Nuxa (Şəki) şəhərində dünyaya göz açmışdı, 1974-cü il dekabr ayının 28-də isə 64 yaşında Şəki şəhərində dünyasını dəyişdi.

Yeri gəlmişkən, Şəki şəhər İcra Hakimiyyətindən və şəhər bələdiyyəsindən bir xahişim və bu orqanlara bir iradım var: Şəhərimizdə elə adamların adları bəzi küçələrə verilib, əbədiləşdirilib ki, buna o qədər də layiq deyirlər. Amma böyük insan, sənət fədaisi Məhyədin Paşa oğlu Abbasovun adı heç olmasa küçələrimizdən birinə verilsə, onun adı əbədiləşər, bununla da ədalət zəfər çalar!

Hesab edirəm ki belə sənət fədailərini layiq olduqları tərzdə qiymətləndirmək və adlarını əbədiləşdirmək indiki Şəki rəhbərliyinin borcu və vəzifəsidir.

**Bayram Mahmudov**
Şəki şəhər sakini, ali partiya təhsilli

---

**Şəki Televiziyası - KANAL S**
**Verilişlərin proqramı 22 – 25 noyabr**



**22 NOYABR**

07:00 Kanal S Xəbər
07:15 C/S – Süngər Bob
07:45 Cizgi filmi
08:00 Bu səhər (canlı)
10:00 Hit-Mix
11:00 Kanal S Xəbər
11:15 T/S – Həyat davam edir
12:00 Cizgi filmi
12:15 Yaşamaq gözəldir
14:00 Qızlar show (təkrar)
15:00 Kanal S Xəbər
15:15 Arşın malçı
15:30 Mən kinoda sözümü demişəm
16:30 B/F – Ölsəm bağışla
18:00 T/S – İkinci şans
18:30 Güldürürük
18:45 T/S – Həyat davam edir
19:30 Kanal S Xəbər
20:15 Qərinələr şahidi
20:45 Muğam dəqiqələri
21:15 Arşın malçı
21:30 Qəhqəhə
22:00 İşgüzar
23:00 Retro-Mix
23:30 Kanal S Xəbər
23:50 Gecənin yarı (canlı)
01:00 T/S – 24 saat
01:45 B/F – Gecənin sahibləri
03:40 Dəb
04:00 Kanal S Xəbər
04:15 Qərinələr şahidi
04:45 Extreme sport
05:15 B/F – Klik əla fürsət

**23 NOYABR**

07:00 Kanal S Xəbər
07:15 C/S – Süngər Bob
07:45 Cizgi filmi
08:00 Bu səhər (canlı)
10:00 Hit-Mix
11:00 Kanal S Xəbər
11:15 T/S – Həyat davam edir
12:00 Cizgi filmi
12:15 Yaşamaq gözəldir
14:00 İşgüzar (təkrar)
15:00 Kanal S Xəbər
15:15 Arşın malçı
15:30 T/S – Andromeda
16:15 B/F – Slevinin uğurlu rəqəmi
18:00 T/S – İkinci şans
18:30 Güldürürük
18:45 T/S – Həyat davam edir
19:30 Kanal S Xəbər
20:15 Ədəbi əbədiyyət
21:15 Arşın malçı
21:30 Meyxana
22:00 Qızlar show
23:00 Retro-Mix
23:30 Kanal S Xəbər
23:50 Gecənin yarı (canlı)
01:00 T/S – 24 saat
01:45 B/F – Billi öldürmək
03:25 Dəb
04:00 Kanal S Xəbər
04:15 Ədəbi əbədiyyət (təkrar)
05:15 B/F – Qonaq
06:30 Klip

**24 NOYABR**

07:00 Kanal S Xəbər
07:15 C/S – Süngər Bob
07:45 Cizgi filmi
08:00 Bu səhər (canlı)
10:00 Hit-Mix
11:15 T/S – Həyat davam edir
12:00 Cizgi filmi
12:15 Yaşamaq gözəldir
14:00 Qızlar show (təkrar)
15:00 Kanal S Xəbər
15:15 Arşın malçı
15:30 T/S – Andromeda
16:15 B/F – Turist
18:00 T/S – İkinci şans
18:30 Güldürürük
18:45 T/S – Həyat davam edir
19:30 Kanal S Xəbər
20:15 Məhəllə
21:15 Arşın malçı
21:30 Avtostop
22:00 Sosial həyat
23:00 Retro-Mix
23:30 Kanal S Xəbər
23:50 Gecənin yarı (canlı)
01:00 T/S – 24 saat
01:45 B/F – Billi öldürmək 2
03:45 Dəb
04:00 Kanal S Xəbər
04:15 Məhəllə (təkrar)

**25 NOYABR**

*Profilaktika*
16:00 Arşın malçı
16:15 Sosial həyat (təkrar)
17:15 B/F – Böyük Sten
18:45 T/S – Həyat davam edir
19:30 Kanal S Xəbər
20:15 Qala
21:15 Arşın malçı
21:30 Oralar
22:00 Qızlar show
23:00 Retro-Mix
23:30 Kanal S Xəbər
23:50 Gecənin yarı (canlı)
01:00 T/S – 24 saat
01:45 B/F – Yaquar
03:10 Dəb
04:00 Kanal S Xəbər
04:15 Qala (təkrar)
05:15 B/F – Şübhəli bilinən müqəssir

**26 NOYABR**

07:00 Klip
08:00 Bu səhər (canlı)
10:00 Hit-Mix
11:00 Kanal S Xəbər
11:15 Güldürürük
12:15 Yaşamaq gözəldir(toplu)
14:00 Qızlar show (təkrar)
15:00 Kanal S Xəbər
15:15 Arşın malçı
15:30 Oralar (təkrar)
16:00 B/F – Məhəbbət təsadüfləri sevir
18:00 Cizgi filmi
18:30 Bu şəhərdə (yığmalar)
19:30 Kanal S Xəbər
20:15 Sirlər
21:15 Arşın malçı
21:30 Gəzərsən görərsən
22:00 Şou məkan
23:00 Kriminal
23:30 Kanal S Xəbər
23:50 Gecənin yarı (canlı)
01:00 T/S – 24 saat
01:45 B/F – Yuxular ovcusu
03:50 Dəb
04:15 Bu şəhərdə (yığmalar)
05:15 B/F – Gözəgörünməz adamın xatirələri

**27 NOYABR**

07:00 C/F – Çəpərin üzərindən
08:30 Bağban
09:00 T/t – Şah Edip
10:45 Konsert (Şakira)
10:30 B/F – Gözəgörünməz uşaqlar
12:30 Şou məkan (təkrar)
13:30 Sağlam həyat (canlı)
14:30 Sürət
15:00 Kanal S Xəbər
15:15 Arşın malçı
15:30 Gəzərsən görərsən (təkr.)
16:00 B/F "Blef ustası"
18:15 Cizgi filmi
18:30 Kinokonsert
19:00 Plan B
19:30 Güzgü
20:45 Məxfi gülüş
21:15 Arşın malçı
21:30 Sənətkar
22:00 Kanal S-inema
22:15 B/F – İstintaq
23:50 Gecənin yarı (canlı)
1:00 T/S – 24 saat
1:45 Futbol-Nostalji Fransa - Braziliya (1986)
04:15 Sirlər (təkrar)
05:15 B/F – Mafiya
06:30 Klip

---

# Şəki kəndlərində mavi yanacagın olmamasının əzabını sakinlərlə birgə ağaclar, atlar və eşşəklər də çəkirlər!

*Şəkinin Baş Kəldək kəndi ərazisində noyabrın 11-i, saat 9:30 radələrində Baş Göynük kənd sakinini cərəyan vurmuşdur. Baş Göynük kənd sakini 1968-ci il təvəllüdlü Rəsulov Vasif Ağam oğlu dağa yandırmaq üçün odun tədarükünə gedərkən, Baş Küngüt çayının yuxarısındakı yolda atı ilə birlikdə cərəyan vurması nəticəsində ölüb. Qırılaraq yola düşən naqildə cərəyan olduğundan atın qabaq ayağını tamamilə yandırıb. Daha sonra atın üstündə olan Vasif Rəsulov yıxılaraq cərəyan olan naqilin üstünə düşdüyündən o da alışaraq yanmağa başlayıb. Yaxınlıqda yaşayan insanlar Vasifin üzərinə qar tökərək, yanğının qarşısını alsalar da, onun həyatını xilas edə bilməyiblər. İlkin ehtimallara görə Vasifin ölümünə səbəb atın ayağını cərəyan olan naqilin üstündən basması olub. Lakin hadisənin hansı səbəbdən baş verməsi ekspertizanın rəyindən sonra məlum olacaq.*




Şəkinin bir çox kəndlərində mavi yanacaq olmadığına görə, kənd sakinləri ya həyətyanı sahələrində olan agacları kəsirlər, yada üz tuturlar daglara. Bu da əlbəttə ki ekoloji təhlükə yarada bilər. Kəndlərdə qazın olmaması nə kimi fəsadlar törədir? Kəndlər nə vaxt mavi yanacaqla təmin olunacaq? Araşdırmamızda bu suallara cavab axtarmışıq.

Şəki kəndlərində mavi yanacağın olmamasının əzabını sakinlərlə birgə agaclarda çəkir.

75 yaşlı Əlbəndə müəllim 18 ilə yaxındır ki, hər qış beləcə odun yarmaq məcburiyyətindədi. Onun yaşadıgı Aşagı Göynük kəndinə 1993-cü ildə qaz çəkilib, 6 ay sonra isə həm qaz trubaları, həm də əhali qazsız qalıb.

Əlbəndə müəllimin arvadı 69 yaşlı Ceyran xala da, digər qaz olmayan kəndlərin qadınları kimi yarılan odunları toplayaraq, odun sobası yandırır. O həm çayını bu sobada qaynadır həmdə evin istiliyini təmin etməyə çalışır.

Şəkidə 54 kəndin və bir qəsəbənin sakinləri də hər qış qaz olmadığından, odun tədarükü görmək məcburiyyətindədirlər. Çünki Şəkinin 69 kənd və 2 qəsəbəsinin cəmi 15 kəndi və bir qəsəbəsi mavi yanacaqla təmin olunub. Sakinlər deyirlər ki "metrəsi" 12 manata olan odunu tapmaq da asan başa gəlmir. Tapılsa belə, maddi durumları odun almağa imkan vermir. İmkanı olmayanlar da məcbur olurlar ki, həyətindəki meyvə ağaclarını kəssinlər. Həyətində agacı olmayanlarsa, əlbəttə ki üz tutur meşələrə, dağlara, bu da ekologiyamızın təmizliyində ən mühüm rol oynayan ağacların məhvinə səbəb olur.

Bir neçə gün əvvəl evinin istiliyini təmin etmək üçün dağa üz tutan Baş Göynük kənd sakini Asif Rəsulovunsa ağac qırma istəyi elə özünün məhvinə səbəb oldu. Belə ki atı ilə dağa oduna gedən kənd sakini cərəyan vurmadan həyatını dəyişdi. Bəs görəsən insanları dağa-daşa salan qaz problemi nə vaxt öz həllini tapacaq?!

Qazsız qalan kəndlərin sakinləri isə deyir ki bir neçə il də belə davam eləsə, Şəkidə nə ağac qalacaq, nə də meşə. Bu isə əlbəttə ki ekoloji təhlükədən xəbər verir.

***Kanal S Xəbər***

---

# Şəki Dövlət Dram Teatrının binası əsaslı təmir olunacaq

*Şəkidə aparılan abadlıq işləri mədəniyyət sahəsindən də yan keçməyib. Bir sıra obyetklər kimi Şəki Dövlət Dram Teatrında da yenidən qurma işlərinin aparılmasına başlanılıb. Elə dövlət başçısı İlham Əliyev də Şəkiyə səfəri çərçivəsində teatra baş çəkib və tövsiyələrini verib.*




Azərbaycan prezidenti İlham Əliyev Şəkiyə səfəri çərçivəsində baş çəkdiyi obyektlərdən biri də Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrıdır. Dövlət başçısı teatra baxış keçirib və binanın təmiri ilə maraqlanıb. İlham Əliyev təmir bərpa işlərinin tez bir zamanda və keyfiyyətli görülməsi barədə göstəriş və tövsiyələrini verib.

Şəki Dövlət Dram Teatrı bu ilin sentyabr ayından əsaslı təmirə dayandırılıb. Binanın müasir tələblərə cavab verəcək şəkildə yenidən qurulması nəzərdə tutulur. Fasad hissəsində yenilənmə işləri şəhərin memarlıq üslubunu qorumaqla aparılacaq. Tikili bir əsas və bir köməkçi binalardan ibarətdir. 1969-cu ildə ipəkçilərin mədəniyyət sarayı kimi tikilən bina 1975-ci ildən dövlət dram teatrı kimi fəaliyyət göstərməyə başlayıb. Ancaq bu vaxta qədər burda bir dəfə də olsun əsaslı təmir aparılmayıb. Ancaq bu məsələ şəhər rəhbərliyinin təşəbbüsü ilə gündəmə gəlib. Yenidən qurma işləri il yarım ərzində başa çatdırılacaq və dram teatrı yenidən sakinlərin ixtiyarına veriləcək.

***Kanal S Xəbər***

---

## SON XƏBƏRLƏR

### Məktəbəqədər tərbiyə müəssisələri arasında keçirilən "Şən startlar" yarışı

16 noyabr 2011-ci il tarixdə Şəki şəhər Gənclər və İdman İdarəsi, Təhsil şöbəsi ilə birgə İdman Sağlamlıq Mərkəzində, 20 oktyabr 2011 – 20 noyabr 2011-ci il tarixlərdə "Respublikada Uşaq Hüquqları aylığı" ilə əlaqədar məktəbəqədər tərbiyə müəssisələri arasında "Şən startlar" yarışı keçirmişdir.Yarışın keçirilməsinə bilavasitə rəhbərlik Şəki şəhər Gənclər və İdman idarəsi tərəfindən təyin edilmiş baş hakimlər kollegiyasına tapşırılır.Yarışı giriş sözü ilə Şəki şəhər Gənclər və İdman İdarəsinin rəisi V.İskəndərov açaraq qeyd etdi ki, yarışın məqsədi azyaşlılar arasında fiziki tərbiyənin və idmanın təbliğinə nail olmaqdır.Sonra çıxış edən Şəki şəhər İcra Hakimiyyətinin məsul işçisi S.Səfərov belə tədbirlərin keçirilməsinin önəmi barədə danışdı.Yarışın baş hakimi UGİM–in məşqçi – müəllimi F.Vahabova təyin edilmişdir.Yarışda 12 komanda iştirak etmişdir.Sonda 26 saylı bağça – I yerə, 17 saylı bağça – II yerə, 25 saylı bağça – III yerə layiq görülmüşdür.Qaliblərə və iştirakçılara Şəki şəhər Gənclər və İdman İdarəsinin diplomları və xatirə hədiyyələri təqdim olunmuşdur.

*Şəki şəhər Gənclər və İdman idarəsi*
*21 noyabr*

***

### Bakı, Sumqayıt və Şəki şəhərlərində debat forumları keçirildi

"Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyi Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşkilati dəstəyi ilə "Respublika Debat Forumu – Payız 2011" çərçivəsində Bakı, Sumqayıt, Şəkidə debat forumları təşkil edib.

Təşkilatdan Gün.Az-a verilən məlumata görə, Bakı şəhərinin 4 ali təhsil müəssisəsində debat forumu keçirilib. 133 debat raundundan ibarət forumda 70 komanda iştirak edib.

Ümumilikdə, 250 nəfər gənci əhatə etmiş debat forumları sadalanan ali təhsil müəssisələrində həyata keçirilib: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Texniki Universiteti.

Sumqayıt şəhərində "Sağlam Düşüncə" Gənclər Təşkilatın tərəfdaşlığı ilə Sumqayıt Debat Proqramının 5 illik yubileyi qeyd olunub, Sumqayıt Debat Mərkəzinin açılışı və Sumqayıt Debat Forumu təşkil olunub. 17 komanda iştirakı ilə 30 debat raundu keçirilib və 60 nəfər gənci əhatə etmiş forumda Sumqayıt şəhərində fəaliyyət göstərən 6 təhsil müəssisəsi təmsil olunub.

Şəki şəhərində Şəki şəhər İcra Hakimiyyəti və Şəki şəhər Gənclər və İdman İdarəsinin dəstəyi ilə Şəki, İsmayıllı, Qəbələ rayonlarını əhatə edən "Şimal-Qərb Regional Debat Forumu - 2011" təşkil olunub. 5 komanda iştirak edib, Forum 40 nəfər gənci əhatə edib.

"Respublika Debat Forumu – Payız 2011" Azərbaycan Respublikasının müstəqilliyinin 20 illiyinə həsr olunur və sentyabr – dekabr 2011-ci il müddətini əhatə edərək gənc ailələr və onlara dövlət dəstəyi mövzusunda 150-dən artıq müxtəlif səviyyəli təlim, seminar, turnirləri birləşdirir.

Bakı, Sumqayıt, Gəncə, Şəki, İsmayıllı, Qəbələ, Lənkəran və digər şəhər və rayonları əhatə edən forumda 30-dan artıq təhsil müəssisəsini təmsil edən 2000 nəfər gəncin iştirak edəcəyi nəzərdə tutulub.

*Rüfət Əhmədzadə*
*21 Noyabr, Gün.Az*

***

### Şəkidə 30 hektar ərazidə meşə əkinləri aparılıb

Şəki rayonundakı Olimpiya İdman Kompleksindən yeni tikilən şəhər xəstəxanasının binasınadək olan geniş bir ərazidə son iki ayda 4100 ədəd müxtəlif növ ağac əkilib.

Gün.Az-ın bölgə müxbiri Şəki rayon İcra Hakimiyyətinə istinadən bildirir ki, rayon meşə mühafizəsi və bərpası müəssisəsi tərəfindən cari ildə 30 hektar ərazidə meşə əkinləri aparılıb.

Rayon ərazisində yaşıllıqların və nəzərdə tutulan yerlərdə meşə zolaqlarının salınması işi hazırda da davam etdirilir.

İcra strukturları kənd təsərrüfatı təyinatlı torpaqlardan daha səmərəli istifadə olunması istiqamətində də iş aparırlar. Xüsusən də kənd təsərrüfatı təyinatlı dövlət fondu torpaqlarının istehsalçılar tərəfindən qeyri-rəsmi istifadə olunmasının qarşısının alınması diqqət mərkəzindədir.

Qeyd edək ki, həmin torpaqların müəyyən hissəsi heç bir sənədləşdirmə aparılmadan fermerlər tərəfindən zəbt edilir, icarə haqqı dövlət büdcəsinə ödənilmir, torpaqlardan istifadə qaydaları pozulur. Odur ki, Dövlət Torpaq Xəritəçəkmə Komitəsinin Şəki rayon şöbəsi mövcud nöqsanların aradan qaldırılması istiqamətində fəaliyyətini gücləndirməlidir.

*R.Abdulov*
*Gün.Az , 21 Noyabr*

---

**B A Ş S A Ğ L I Ğ I**

RİTN-nin Maliyyə, Uçot və İqtisadi təhsil şöbəsinin müdiri Mətanət Məmmədovaya anasi **Ədilə xanimin** vəfatindan kədərləndiyimi bildirir və dərin hüznlə başsağlığı verir.

Şəki Regional Poçt Filialının Rəisi İsmayıl İmamov

---

**Həmtəsisçilər :**
1. *"Şəki-İpək" şirkəti;*
2. *M.Salis .*

**(Baş) Redaktor:**
*Aydın Məmmədov.*

**Çapa təqdim edildi:** *22.11.2011.*
**Sifariş:** *4018.*
**Tiraj:** *500.*
**Şəhadətnamə №** *177.*

**Ünvanımız:**
*Az.5500. Şəki şəhəri, F.x.Xoyski -1, otaq 313.*
**E-mail:** *aydin.salis@gmail.com.*
**Tel.:** *055 793 23 83; 012 451 20 32; 0177 423 15,*

**"İpəkçi" qəzetinin kompüterində yığılmış və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.**

**"İpəkçi" qəzeti müstəqil KİV olaraq fəaliyyət göstərir və bu qəzetdə dərc olunmuş xəbər və məqalələrin məzmununa görə "Şəki - İpək" ASC heç bir məsuliyyət daşımır!**

**■"İpəkçi" qəzeti respublikamızda nəşri davam edən yeganə çoxtirajlı (Sovet dövründə müəssisə qəzetləri belə adlanırdı), yeganə fəhlə qəzetidir!**

**■"İpəkçi" qəzeti 12.12.1990-ci il tarixdə, özünü "Şəki İpəkçilərinin Açıq Tribunası" elan edərək, hələ Sovet dövründə, rəsmən, müstəqil Azərbaycan mətbuatın əsasını qoymuşdur!**

**■Azərbaycan Sovet mətbuatında ənənəvi "Bütün ölkələrin proletarları birləşin!" şüarından və Kommunist partiyasının təsisçiliyindən də ilk dəfə - 12.12.1990-ci il tarixdə, "İpəkçi" qəzeti mtina etmişdir!**